UOT 636 . 59, 636.084.612.6

AĞ INGILS VƏ SMOKINQ CINSLI BILDIRÇINLƏRIN AZƏRBAYCANIN CƏNUB BÖLGƏSINDƏ YETIŞDIRILMƏSININ SƏMƏRƏLILIYININ ÖYRƏNILMƏSI

M. Ş.HÜSEYNOV
Azərbaycan Dövlət Aqrar Universiteti

Azərbaycanın təbii iqtisadi rayonlarının 9 - da yetişdirilən bildirçinlərdən Ağ ingilis və Smokinq cinsli bildirçinlər yalnız Gəncə, Şəmkir, Qazax və Ağstafa rayonlarında geniş yayılmışdır. Bunlardan ancaq bildirçin yumurtası almaq üçün istifadə edilir. Lakin Azərbaycanın cənub bölgəsində əsasən ətlik istiqamətli Faraon bildirçinləri şəxsi və fermer təsərrüfatlarında saxlanılır. Azərbaycanın qərb bölgəsində bildirçinlər üzərində prof.Tağıyev A.Ə, doktorantlar Məmmədov R.T, Zeynalova Z.Ə, Hüseynov A.T tərəfindən aparılan onlarla tədqiqat işləri göstərir ki, bu cinslərdən alınan ətin keyfiyyəti də yüksək olur. Yuxarıda qeyd olunan tədqiqatları əsas tutaraq Azərbaycanın cənub bölgəsində həm yumurta, həm də bildirçin əti əldə edilməsi üçün Ağ ingilis və Smokinq cinsli bildirçinlər üzərində tədqiqat işləri apararaq müəyyən etdik ki, hər iki cinsi bu bölgədə yetişdirmək olar və onlardan keyfiyyətli ət əldə etmək mümkündür. Tədqiqat zamanı əldə edilən nəticələrdən məlum oldu ki, Ağ ingilis cinsli bildirçinlər daha yüksək iqtisadi səmərə verməklə yanaşı, onların ətinin sarımtıl ağ rəngdə olması əhali tərəfindən alıcılıq qabiliyyətinin yüksək olmasına gətirib çıxarmışdır. Yuxarıda qeyd olunanlardan aydın olur ki, Azərbaycanın cənub bölgəsində bildirçin əti və yumurtası əldə etmək üçün, Ağ ingilis cinsli bildirçinlər şəxsi və fermer təsərrüfatlarında yetişdirilə bilər.

Açar sözlər: *bildirçin, Ağ ingilis, Smokinq, yetişdirmək, canlı kütlə, kəsim çıxarı,ətin keyfiyyət göstəriciləri*

Müasir dünyada insanları narahat edən əsas problemlərdən biridə insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsidir. İnsanların artım sürəti ilə onların istehlak etdiyi ərzaq məhsullarının istehsal sürəti arasında xeyli fərq var. Belə ki, ərzaq məhsullarının az istehsal olunması insanları daha çox düşünməyə və yeni üsul, metodlar yaratmağa sövq edir. İnsanlar zülal istehsalı üçün daima axtarışdadır. İnsanların zülal bolluğu yaratmağa yönələn cəhdləri bəzən uğurlu bəzən də uğursuz olur. Bildirçinlər olduqca nadir canlılardandır. Onlar yaşamağa olduqca asan uyğunlaşır, yaxşı məhsul verirlər [1]. Hal hazırdakı dövrdə bildirçinlərin 6 cinsi bütün yer kürəsində geniş yayılıb. Bu cinslərdən biri də Smokinq cinsidir. Smokinq bildirçini qara ingilis və ağ ingilis cinsindən alınmışdır. Bu cins fərdi və fermer təsərrüfatları üçün yaradılmış cinsdir, sənaye əsasında bu cins inkişaf etdirilməmişdir [2,6,7]. Bu cinsin baş və bel hissəsi tünd şabalıdı boynu, döş və qarına yaxın hissəsi ağ rənglidir. Bu görünüşə malik olduğu üçün bu cins Smokinq adlandırılıb. Smokinq cinsi üzərində tədqiqat aparan alimlər göstərirlər ki, bu cins yumurtalıq - ətlik istiqamətli cinsdir. Alimlərin ayrı-ayrı tədqiqatlarından aydın olur ki, Smokinq cinsinin canlı kütləsi 160-180 q arasında dəyişilir. Dişi smokinqlər il ərzində çəkisi 9-10 qr, 250-270 ədəd yumurta verir. Bu cins eyni zamanda gözəl duruşu ilə fərqlənir[3,4].

Azərbaycanın cənub zonasında yetişdirdirilən bildirçin cinsləri əsasən ətlik istiqamətlidir və bunlardan Faraon və Texas cinsi geniş yayılmışdır. Bu cinslərdən ancaq ət almaq məqsədi ilə istifadə olunur [5].Ağ ingilis və Smokinq cinsi yumurtalıq və ətlik istiqamətli olduğu üçün və bu bölgəni bildirçin yumurtası ilə təmin etmək məqsədilə saxlanıla bilər [8].

Bildirçinçilik Azərbaycanda yeni yaradılmış, az tədqiq olunan sahələrdən biridir. İnkişaf etmiş ölkələrdə bildirçinçilik sənaye əsasında inkişaf etdirilir lakin bizim respulikada bu baxımdan görülən işlər o qədərdə ürək açan deyildir. Elə bu səbəbdən də biz elmi tədqiqat işimizi Azərbaycanın cənub bölgəsində yetişdirilən iki müxtəlif Ağ ingilis və Smokinq cinsli bildirçinlərin müqayisəli şəkildə məhsuldarlığının öyrənilməsinə həsr etmişik.

Ağ ingilis və Smokinq cinslərindən olduqca keyfiyyətli bildirçin yumurtası əldə olunur və bunlardan alınan ətin keyfiyyətində başqa ətlik keyfiyyətli bildirçinlərin ətindən fərqlənir.

Yuxarıda göstərilən alimlərin apardığı tədqiqatlardan aydın olur ki, hər iki cins insanların zülala olan tələbatını ödəyə bilir. Lakin bu cinslərdən hansı təbii iqtisadi zonalarda daha yüksək məhsul əldə olunması bu günə kimi araşdırılmayıb. Aparılan tədqiqatlar zamanı alınan nəticələrin fərqli olması və onların saxlandığı ərazilərdə hansı cinsin üstün olduğu bu günə kimi araşdırılmayıb.

Yuxarıda göstərilənləri nəzərə alaraq Azərbaycanın cənub bölgəsində yetişdiriləcək Ağ ingilis və Smokinq cinslərinin şəxsi və fermer təsərrüfatlarında saxlanılmasını, səmərəliliyin öyrənilməsini qarşıya məqsəd qoydu.

Tədqiqatın aparılma material və metodikası. Tədqiqat işi ADAU- nun Baytarlıq təbabəti və Zoomühəndislik fakültəsinin bildirçinçilik üzrə tədris mərkəzində və Masallı rayonu 3M Fermer təsərrüfatında Ağ ingilis və Smokinq cinsli bildirçinlər üzərində aparılmışdır. Təcrübə zamanı hər iki cinsin yumurtalıq ətlik istiqamətli olmasına baxmayaraq ətin keyfiyyət göstəriciləri isti iqlimlə müşahidə edilən yaz və yay aylarında öyrənilmişdir.

Tədqiqat zamanı mikroiqlim amilləri bildirçinlərin yemləndirilməsi, yem rasionu eyni qaydada təşkil edilmişdir . Tədqiqat iyun-iyul aylarında talvar altında üç qrupda saxlanılmışdır, 1-ci qrupda Ağ ingilis cinsli bildirçinlər, II-ci qrupda isə Smokinq cinsli bildirçinlər, üçüncü qrup həm (50%, 50 %) Ağ ingilis həmdə Smokinq cinsli bildirçinlər birinci gündən kəsimə gedənə qədər birlikdə qarışıq sistemdə saxlanılmışdır. Tədqiqatın 5, 6, 7-ci həftəliyində bildirçinlərin canlı kütləsi, boy və inkişafı onlardan alınan cəmdəyin kütləsi MH Series və WH BO4 elektron tərəzisindən istifadə edərək müəyyənləşdirilmişdir. Zootexniki göstəricilərdən olan ət çıxarı və bildirçinlərin ətinin keyfiyyət göstəriciləri Rusiya Fedrasiyası Elmi Tədqiqat Texnoloji Quşçuluq İnstitutunda hazırlanmış metodlar əsasında aparılmışdır.

Hər üç qrupda bildirçinlərin yemləndirilməsi üçün yem rasionu bizim tərəfimizdən aşağıdakı tərkibdə hazırlayaraq tətbiq edilmişdir. Qarışıq yemin tərkibinə 56,2 % buğda, 36,1% qarğıdalı , 1,5 % yem mayası, 1,8 % balıq farsı,1,5 % aydağ syaliti; 0,8 soya unu, 1,6 % pambıq şrotu, 0,3 % yodlaşdırılmış xörək duzu, daxil edilmişdir. Tədqiqat işi aşağıdakı sxem üzrə aparılmışdır.

Cədvəl 1

Tədqiqatın aparılma sxemi

Göstəricilər	Qruplar		
	Ağ ingilis (I)	Smokinq (II)	Qarışıq (III)
Canlı kütləsi, qr	5,6,7 həftəlik	5,6,7 həftəlik	5,6,7 həftəlik
Cəmdəyin cəkisi, qr	5,6,7 həftəlik	5,6,7 həftəlik	5,6,7 həftəlik
Cəmdəyin əzələsinin morfoloji göstəriciləri, %	5,6,7 həftəlik	5,6,7 həftəlik	5,6,7 həftəlik
Ətin kimyəvi tərkibi, %	5,6,7 həftəlik	5,6,7 həftəlik	5,6,7 həftəlik
Ətin və bulyonun dequstasiyası (balla)	5,6,7 həftəlik	5,6,7 həftəlik	5,6,7 həftəlik

Alınan nəticələrin təhlili: Tədqiqatın aparılma material və metodikasına uyğun olaraq Ağ ingilis və Smokinq cinslərinin 35,42, 49 günlükdə canlı kütlələri müəyyən edildi: Ağ ingilis cinsli bildirçinlərinin canlı kütləsi 35 günlükdə 169,6 qr; 42 günlükdə 212,7 qr; 49 günlükdə 233,4 qr müəyyən edildi və bu dövrdə Ağ ingilis cinsli bildirçinlərin canlı kütləsində 30,2; 48,8; 47,7 qram Smokinq cinsindən yüksək kütləyə malik olduğu məlum oldu.

Apardığımız tədqiqat işləri zamanı hər iki cinsdən alınan cəmdəyin çəkisində də yenə üstünlük Ağ ingilis cinslərdən olan cəmdəklərdə yüksək olmuşdur. 2 saylı cədvəldən göründüyü kimi , Smokinq cinsli bildirçinlərdən 35 günlükdə alınan cəmdəyin çəkisi 93,6, 42 günlükdə 119,3, 49 günlükdə 132,4 qr olduğu halda Ağ ingilis cinsli bildirçinlərdə bu göstərici müvafiq olaraq 30,2%, 21,5 % çox olduğu məlum oldu. Qarışıq sistemdə saxlanan bildirçinlər üzərində aparılan tədqiqatlar göstərir ki, qarışıq sistemdə saxlanan sürüdə 50% ağ ingilis cinsli bildirçinlərin olması. Burada bu qrupda da alınan məhsuldarlıq göstəriciləri Smokinq cinsləri saxlanan II qrupdakına nisbətən yüksək olmuşdur.

Cədvəl 2

Bildirçinlərin canlı kütləsi və cəmdəyin çəkisi (M±m)

Yaşı (gün)	Q r u p l a r					
	I		II		III	
	Canlı kütlə, qr	Cəmdəyin cəkisi, qr	Canlı kütlə, qr	Cəmdəyin cəkisi, qr	Canlı kütlə, qr	Cəmdəyin cəkisi, qr
35	169,6 ±1,42	131,6±0,82	139,4±1,93	93,6±0,8	151,7±1,18	119±1,16
42	212,7± 1,14	158,7±1,98	163,9±1,15	119,3±1,09	184,8±2,0	131,6±1,27
49	233,4 ±1,41	187,3±1,44	186,0±2,06	132,4±1,85	193,1±1,08	141,7±0,94

Belə ki, III qrupda cəmdəyin çəkisi də 35,42 və 49 günlükdə II qrupda saxlanan Smokinq bildirçinlərin cəmdəyinin kütləsindən çox olmuşdur (119; 131,6 ; və141,7 qr) . III qrupda Ağ ingilis bildircinlər Smokinq cinslərinə nisbətən yemi və suyu çox qəbul etdiyi üçün yaxşı inkişaf etmişlər. Buna görə Smokinq cinsi yaxşı inkişaf etmir, qəfəsələrdə bir yerə kütlə şəklində yığılır, yemdən bəzi hallarda sudan kənarlaşdırıldığı üçün yaxşı inkişaf etmirlər. Belə dövrdə Smokinq cinsli bildirçinlərin canlı kütləsi və alınan cəmdəyin çəkisi olduqca aşağı olur. Fərqli cəhətlərdən biridə Ağ ingilis və Smokinq cinslərinin ətinin kateqoriyaları arasında müşahidə edilmişdir. Bu fərqləri 3 saylı cədvəldən görmək olar.

Cədvəl 3

Bildirçin cəmdəyinin kateqoriyası (M±m)

Cinslər	I kateqoriya		II kateqoriya	
	Baş	Cəmdək kq	Baş	Cəmdək kq
Ağ ingilis	87	14,0	13	1,2
Smokinq	79	10,9	21	2,4
Ağ ingilis və Smokinq	83	12,6	17	1,6

Satışa verilən 100 baş Ağ ingilis cinsli bildirçinlərin 87 başı I kateqoriya, 13 başı isə II kateqoriya, II qrupda müvafiq olaraq 79 baş I, 21 baş II kateqoriya, qarışıq sistemdə saxlanma zamanı isə

83 başı I, 17 baş isə II kateqoriya aid edilmişdir. Cəmdəkdə əmələ gələn fərqlərdən bir daha aydın olur ki, Ağ ingilis cins bildirçinlər Azərbaycanın cənub bölgəsində saxlanarkən Smokinq cinsli bildirçinlərə nisbətin daha keyfiyyətli bildirçin cəmdəyi əldə olunur.

Tədqiqat zamanı bildirçinlərin kəsim çıxarı, döş hissədə, bud nahiyəsində olan əzələlərin miqdarı, daxili orqanların, ürəyin, qaraciyərin, əzələli mədədən, daxili piyin miqdarı da müəyyənləşdirildi. Tədqiqat nəticələri 4saylı cədvəldə göstərilmişdir.

Cədvəl 4

Bildirçinin cəmdəyinin kateqoriyaları (M±m)

Göstəricilər	Q R U P L A R								
	I			II			III		
	G Ü N L Ə R								
	35	42	49	35	42	49	35	42	49
Kəsim çıxarı, %	69,1	70,0	72,4	69,9	70,1	68,1	68,2	70,1	70,2
Döş əzələsi, qr	36,7	48,7	57,6	31,2	42,4	44,6	33,6	45,9	51,3
Bud əzələsi, qr	24,2	30,9	35,9	19,6	29,9	28,4	22,2	26,8	30,8
Ürək qr	1,3	1,5	1,58	1,2	1,39	1,46	1,2	1,38	1,47
Qara ciyər, qr	4,2	4,7	5,6	3,8	4,0	4,83	3,9	4,1	4,96
Əzələli mədə, qr	3,9	4,2	4,8	3,6	3,76	4,1	3,7	4,0	4,2
Piy, qr	0,90	1,89	2,04	0,59	0,82	1,29	0,60	1,0	1,42

Birinci qrupda saxlanılan Ağ ingilis cinsli bildirçinlərin 49 günlükdə kəsim çıxarı 72,4 , döş əzələsi 57,6, bud əzələsi 35,9, ürək 1,58, qaraciyər 5,6, əzələli mədə 4,8 piy, 2,04 qram olduğu halda, II və III qruplarda bu göstəricilər aşağı göstəricilərlə özünü göstərməkdədir. Əsas fərq kəsim çıxarında, döş və bud əzələsinin miqdarında müşahidə edilmişdir. Daxili orqanlar üzərində toplanan yağların miqdarı I qrupda 2,04 qr təşkil etdiyi halda, II qrupda bu göstərici 1,29, III qrupda isə 1,42 qr təşkil etmişdir ki, bu da müvafiq olaraq Ağ ingilis cinsində toplanan yağlardan 0,75qr və 0,62 qr azdır. Tədqiqat zamanı bütün qruplarda bildirçinlərin salamat saxlanma faizi hesablanmışdır. Bu göstəricidə Ağ ingilis cinsli bildirçinlərin sağlam saxlanma faizi I qrupda 96% təşkil etdiyi halda, Smokinq bildirçinləri saxlanma faizi 92%, III qrupda isə 93 % təşkil etmişdir.

Nəticə. Ağ ingilis və Smokinq cinsli bildirçinlər üzərində Azərbaycanın cənub bölgəsində aparılan tədqiqat işləri göstərdi ki, bu cinslər şəxsi və fermer təsərrüfatlarında yetişdirilə bilər. Bu cinslərdən həm yüksək keyfiyyətli yumurta və ət məhsulu əldə etmək olur. Lakin Ağ ingilis cinsli bildirçinləri dərisinin sarımtıl ağa bənzəməsi saxlandığı dövrdə salamat saxlanma faizi, ət çıxarı, sümüyün ətə olan nisbəti və ətin biokimyəvi tərkibi, Smokinq cinsindən dadı yüksək olduğu üçün yaxşı olar ki, bu bölgədə Ağ ingilis cinsli bildirçini saxlamaq üçün istifadə edilsin.

ƏDƏBİYYAT

1.Антипова Л. В. Перепела как альтернативное сырье для производства оригинальных продуктов питания. Материалы международный научно- практической конференции. Тамбов, 2006, с. 187-189. 2.Афанасьев Г.Д и др. Воспроизводительные качества перепелов разного происхождения. //Зоотехния, №12, 2014, с. 19-20. 3.Mustafayeva G.Ə, Mustafayeva D.V., Əhmədov B.Ə. Bildirçinçiliyin menecmenti. Bakı, 2003, 33 s. 4.Məmmədov R.T. Faraon bildirçinlərinin yetişdirmə üsullarının onların ət məhsuldarlığına və ətin keyfiyyət göstəricilərinə təsiri. //Azərbaycan Aqrar Elmi, 2017, №2, s. 156-158. 5. Тагиев А.А , Зейналова З. Применение цеолитов для снижения отрицательного виляния экологических факторов на организм перепелов. // Müasir təbiət və iqtisad elmlərinin aktual problemlərinə həsr edilmiş Beynəlxalq elmi konfransın materialları. III hissə, Gəncə 04-05 may, 2018, s. 44-46. 6.Тагиев А.А, Алиев А.А Особенности развития мясных перепелят в постэмбриональном периоде. //Müasir təbiət və iqtisad elmlərinin aktual problemlərinə həsr edilmiş Beynəlxalq elmi konfransın materialları. III hissə, Gəncə, 04-05 may, 2018, s. 189-191. 7.Sparrey J ,Sandercock D. A Sparks N. H. Sandilands V .Current and novel methods for killing poultry indivindually on -farm. World S. poultry Science Journal 70 december 2014 number 4. S.337-757. 8.hittps*:// bachalecor. Ru // https* WWW /*İNFOBRAZ* .RU

Изучение эффективности выращивания перепел пород белая англи йская и смокинг в южном регионе Азербайджана

М.Ш.Гусейнов

Исследовательские работы, проводимые в южном регионе Азербайджана на перепелах породы Смокинг и Белая английская показали, что в фермерских и личных хозяйствах этого региона можно выращивать эти породы. От этих пород можно получить качественные яйца и мясные продукты. Однако, в период выращивания у перепел Белой английской породы по сравнению с смокинговой породой желтовато-белый цвет кожи,процент выживаемости во время выращивания, мясной выход, соотношение мяса к костям, биохимический состав и вкусовые качества мяса были более высокими. Поэтому мы пришли к заключению, что в этом регионе приемлемо (было бы лучше) выращивать перепела Белой английской породы.

Ключевые слова:*перепела, Белая пнглийская, Смокинг, выращивание, живой вес, убойный выход, показатели качества мяса*

Studying the efficiency of growing english and smoking in the southern region of Azerbaijan

M.Sh.Huseynov

Research work carried out in the southern region of Azerbaijan on Quail Smokings and White English quail showed that it is possible to grow these breeds in the farms and personal farms of this region. From these breeds you can get quality eggs and meat products. However, during the growing period of the White English quail compared to the tuxedo breed, the yellowish-white color of the skin, the percentage of survival during the cultivation, the meat yield, the ratio of meat to bones, the biochemical composition and taste of meat were higher. Therefore, we came to the conclusion that in this region it is acceptable (it would be better) to grow a quail of the White English breed.

***Keywords**: quail, White English, Smokings, crop farming, live weight, slaughter yield, meat quality indicators*

